https://doi.org/10.58225/tim.2025-1-59-64

**Ə.Ə.Əhmədova**
***dosent, Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti***
***ORCID 0000-0001-8384-8493***
***akima199192@gmail.com***
**A.M.Əliyev**
***magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti***
***asimliyev02@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 24.12.2024*
*The article was received by editorial board on 24.12.2024*
*Статья принята к печати 24.12.2024*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFININ ÖLKƏ İQTİSADİYYATINDA ROLU VƏ YERİ

**Xülasə**

*Tədqiqatçılar sahibkarlığın ölkə iqtisadiyyatındakı rolunu müzakirə edərkən ən çox rəqabət səviyyəsinin, onların innovativ fəallığının və sosial əhəmiyyətinin artmasını qeyd edirlər. Bir çox inkişaf etmiş ölkələrdə davamlılıq iqtisadiyyatın bu sektoru ilə birbaşa bağlıdır ki, bu sektor ümumi müəssisələrin 70-80%-ni və ümumi daxili məhsulun 65-75%-ni təşkil edir. Azərbaycan iqtisadi sistemində sahibkarlığın rolu bu cür göstəricilərdən danışsaq, o qədər də əhəmiyyətli deyil, lakin bu sahənin, o cümlədən dövlət dəstəyi proqramları vasitəsilə inkişafının vacibliyi artıq heç kim tərəfindən inkar edilmir. Ölkənin sosial-iqtisadi sisteminin fundamental və zəruri elementi kimi sahibkarlığın inkişafı problemlərinin müzakirəsi ən yüksək səviyyədə aparılır. Müstəqillik əldə etmiş hər bir ölkə qarşısında duran ən birinci vəzifə bu müstəqilliyin sosial, siyasi və iqtisadi özülünü yaratmaq və buna uyğun olaraqda gələcək inkişafı formalaşdırmaqdır. Hər bir dövlətin iqtisadiyyatı onun keçdiyi uzun inkişaf tarixi qədər qədim və zəngindir. Ümumiyyətlə ölkə iqtisadiyyatı keçdiyi böyük tarixi dövr ərzində ictimai əmək bölgüsünün, təbii amillərin və istehsalın ictimailəşdirilməsinin dərinləşməsinin təsiri əsasında formalaşır. Müasir iqtisadi ədəbiyyatlarda sahibkarlıq terminini təsərrüfat fəaliyyətinin bir forması kimi müəyyən edirdilər. Beləki, sahibkarlıq fəaliyyəti üçün yeni gəlir gətirən fikirlərin aşkara çıxarılıb, onun həyata keçirilməsi, çeviklik, təşəbbüskarlıq, riskə etmək bacarığı, təsərrüfat fəaliyyəti üzrə təşkilati yenilikçiliyi səciyyəvidir. Onu da qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycan da sahibkarlığın yeni formaları yaranmaqda və inkişaf etməkdədir. O cümlədən, qanunla qadağan edilmiş və ya qanunla qadağan edilməmiş, xüsusi icazə istəməyən və ya tələb etməyən sahibkarlıq fəaliyyətinin bir çox sahələri müəyyən edilmişdir. Bu məqalədə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı statistik məlumatların və ədəbi mənbələrin təhlili əsasında sahibkarlığın həll etdiyi bir sıra ən mühüm problemləri müəyyən etmişdir.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, sahibkarlıq fəaliyyəti, ölkə iqtisadiyyatı, biznes, inkişaf strategiyası.*

## GİRİŞ

Ümummilli Liderimiz Əliyev Heydər Əlirza oğlu tərəfindən müəyyən olunmuş və Azərbaycan Respublikasının hazırki Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birini sahibkarlığın inkişafı təşkil edir. Sahibkarlığa sistemli şəkildə dövlət himayəsinin həyata keçirilməsi, həmçinin sahibkarlıq subyektlərinə dövlətin dəstək olduğu tədbirlərin inkişafının yüksəldilməsi həmin sahədə mühüm müvəffəqiyyətlərin əldə edilməsinə kömək etmişdir. Dövlət-sahibkar münasibətləri daimi olaraq inkişaf etdirilmiş və sahibkarlığın dövlət tənzimlənməsi

mexanizminin təkmilləşdirilməsi üzrə həlledici addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsi mexanizmləri yaradılmış və onların tətbiqi sayəsində müdaxilə halları aradan qaldırılmışdır. Bütün bunlarla yanaşı, sahibkarlığa maliyyə yardımı mexanizmi yaradılmışdır ki, o da nəticədə ölkədə fəaliyyət göstərən sahibkarların maliyyə ehtiyatlarına olan tələbatının ödənilməsini təmin edir.

Ölkə iqtisadiyyatının formalaşmasında və inkişaf etməsində sahibkarlıq fəaliyyətinin önəmini və əhəmiyyətliliyini vurğulamaq lazımdır. Belə ki, bazar iqtisadiyyatına keçidin ilk zamanlarında bir çox problemlərlə yanaşı, bazar iqtisadiyyatına aid qanunlar və qaydalar qəbul olunduqca isə inkişaf edən sahibkarlıq fəaliyyəti ölkə iqtisadiyyatının inkişafının başlıca amilinə çevrilirdi. Nəticədə, illər öncə mövcud olmuş mərkəzdən planlar əsasında idarə olunmuş iqtisadiyyat, artıq müxtəlif sahibkarlıq fəaliyyətinin başqa formaları ilə məşğul olan sahibkarların şəxsi təşəbbüsləri əsasında yenidən formalaşırdı. İlk öncə mülkiyyət formasında yeni dəyişikliklər həyata keçirildi. Həmçinin, bu mülkiyyət formalarının sosial – iqtisadi məzmunuda dəyişirdi və yenilənirdi. Ölkə iqtisadiyyatı indiki dünyada azad inkişafa bir şərtlə nail olurki, iqtisadiyyat mülkiyyətin bir formasına deyil də, ayrı-ayrı formalarına uyğunlaşmış olsun. Bazar iqtisadiyyatına keçid ilə əlaqədar olaraq fərdi bölmənin yaranmasına və dövlətin milli iqtisadiyyatında onun rolunun artmasına gətirib çıxartdı. İqtisadiyyatın bir çox sahələrində xüsusi müəssisələr işləyir. İqtisadi sahədə dövlət mülkiyyətinin ümumi çəkisində azalma baş verməsi ona əsas gətirmirki, bu bölmə üzrə ehtiyatlar bitmişdir. [4]

Makroqitisadi siyasət və iqtisadiyyatın balanslaşdırma proporsionallığının təmin edilməsi funksiyasını yerinə yetirməklə sosial yönümlü iqtisadiyyata təsir göstərir. Beləki, bundan öncəki sistemdəki kimi ölkə mülkiyyəti , artıq mülkiyyətin müxtəlif formalarını əvəz edə bilməməklə bərabər, həmçinin mülkiyyət formalarının dövlət iqtisadiyyatında olan yerini inkar edə bilməz. Bununlada iqtisadiyyatın ölkə tənzimlənməsi öz effektliyini bu mülkiyyət formalarında və dövlət mülkiyyətinə uyğun olan sahibkarlıq fəaliyyətinin əlaqəli təşkil olunma mexanizmlərinin yaradılmasında öz əksini tapır. [6]

**Cədvəl 1**

**Sosial-iqtisadi inkişaf və sahibkarlığın arasında əlaqə göstəriciləri**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Ümumi daxili məhsul ( milyon manatla) | 40137,2 | 41574,7 | 54352,1 |
| O cümlədən qeyri dövlət sektoru %lə | 84.5 | 81 | 82 |
| Sənaye məhsulunun həcmi (milyon manatla) | 29773,3 | 27978,2 | 26369,4 |
| O cümlədən qeyri dövlət sektorunun xüsusi çəkisi | 89 | 87 | 85 |
| Kənd təsərrüfatı, meşəçilik, balıqçılıq və ovçuluq məhsullarının ümumi həcmi (mil.manat) | 3337,0 | 3962,2 | 5837,9 |
| O cümlədən özəl sektorun payı %lə | 99 | 99 | 99 |
| Pərakəndə əmtəə dövriyyəsində (mil.manatla) | 10876,0 | 13679,5 | 25721,1 |
| O cümlədən özəl sektorun payı %lə | 99,1 | 98 | 96,4 |

***Mənbə:*** *Azərbaycanın Statistik Göstəriciləri 2023.Bakı, 2023, s.38-41, s.383*

Cədvəldən də görə bilərik ki, 2021-ci illə müqayisədə 2023-ci ildə ÜDM qeyri-dövlət sektorunun xüsusi çəkisi atrmışdır. Bazar iqtisadiyyatına keçid dönəmində dövlətin iqtisadi siyasəti elə müəyyən olunmalıdır ki, iqtisadi artımla bəeabər sosial maneələrin aradan götürülməsini təmin edə bilən

səmərəli sahibkarlar və mülkiyyətçilər fəaliyyət göstərsin. Bunlar ən son nəticədə xalq təsərrüfatının subyektləri ilə qarşılıqlı əlaqədə olmaqla ölkə iqtisadiyyatının inkişafını həyata keçirsin.

Mülkiyyət baxımından ölkə əhalisinin məşğulluq sferası və dinamikası dövlət iqtisadiyyatının təşəkkülünü müəyyən aspektdə səciyyələndirdiyi üçün bu dinamikanın təhlilinin aparılması vacib və məqsədə uyğun hesab edilir. 2019-cu il noyabr ayının 1-nə olan vəziyyətinə əsasən, iqtisadi aktiv əhalinin sayı 5 milyon 196,9 min nəfər olub. Onlardan 4 milyon 945,1 min nəfərini isə məşğul əhali təşkil edib.[9]

2020-ci il fevral ayının 1-i vəziyyətinə məşğulluq xidməti şöbələrinə qeydiyyata alınan işsiz əhalinin sayı 86,2 min nəfər olub, onların 37,7 faizini isə qadınlar təşkil etmişdir.

2021-cil il yanvarın 1-nə olan məlumatlara əsasən, ölkəmizdə iqtisadi aktiv əhalinin sayı 5 milyon 250 min nəfərdir ki, onların da 4 876 000 nəfəri məşğuldur.

2021-ci il yanvarın 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin, yəni məşğul və işsiz əhalinin ümumi sayı 5milyon 252,5 min nəfər olub.[8]

İqtisadi fəal əhalinin 4 milyon 876,6 min nəfərini məşğul əhali, yəni qanunvericiliyə zidd olmayan və qazanc gətirən hər hansı fəaliyyətlə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları və ya ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər, həmçinin əcnəbilər təşkil edib ki, onların sayı 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz azalıb.[9]

2022-ci il fevralın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 304,3 min nəfər olub, onlardan 4 milyon 988,5 min nəfərini məşğul əhali təşkil edib

2023-cü il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5249.7 min nəfər olmuş, onlardan 4963.3 min nəfərini məşğul əhali təşkil etmişdir.

2023-cü il dekabrın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1732.6 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 899.8 min nəfər, qeyri-dövlət sektorunda isə 832.8 min nəfər təşkil etmişdir.

Məşğul olan əhalinin çox hissəsi xidmət sahələrində müşahidə olunur. Xidmət sahələrində fəaliyyət göstərənlərin sayında artım olması bir inkişaf göstəricisi sayılsada, Azərbaycan Respublikasında ölkə iqtisadiyyatının sürətli inkişafını səciyyələndirmir. Ona görəki, ölkədə istehsal sahələrinin inkişafı zəifdir. Sahibkarlar isə belə sahələrə maraq göstərmir, onlar daha az vəsait sərf edilən və tez bir zamanda gəlir gətirən sahələrə yönəlirlər. Belə sahələr isə ticarət və xidmət sahələri daxildir.

Bir iş bölgsi mal və xidmət növlərindəki fərqlərdən başqa, alış-veriş edən müştərilərin növləri ilə də fərqlənir. Üç ümumi bazar seqmenti var: [5]

1. alış-veriş zonası daxilində yerli sakinlər. Onlar il boyu bu ərazidə yaşadıqları üçün əksərmüəssisələr üçün potensial xərclərin əksəriyyətini təmin edirlər;

2. alış-veriş zonasında yaşaya bilən gündüz işçiləri və ya başqa icmalardan gələn digər şəxslər. Onların iş günü ərzində alış-veriş zonasında alış-veriş etmək potensialı var;

3. turistlər və ikinci ev sahibləri böyük xərcləmə potensialı təklif edə bilərlər. Daimi sakin olmasalar da, turistlər yəqin ki, əraziyə gələrkən alış-veriş edirlər. Qeyri-rezident müştərilərin coğrafi mənşəyinin təhlili bu bölmənin əlavəsindəmüzakirə olunur.

Biznes dünyasında ticarət zonalarını başa düşmə k uğur üçün çox vacibdir. Ticarə t sahə si müştə rilə rin ə n çox gə ldiyi və şirkə tlə rin satışlarının böyük hissəsini cəlb edə biləcəyi müəyyən bir yeri əhatə edən coğrafi bölgəyə aiddir. Alış-veriş sahələrinin biznesdə əhəmiyyətini qiymətləndirmək olmaz. Onlar bazarın müə yyə nlə şdirilmə si, satışın proqnozlaşdırılması, yer seçimi və rəqabət təhlili daxil olmaqla, biznes əməliyyatlarının bir neçə əsas aspektlərində mühüm rol oynayırlar. Ticarət sahəsini başa düşməklə, şirkətlərə saslandırılmış qərarlar qəbul edə və bazar potensialını maksimum dərəcə də artırmaq üçün strategiyalarını optimallaşdıra bilərlər.[2]

**NƏTİCƏ**

Tədqiqat sonunda müəyyən istiqamətlər üzrə nəticələr qeydə alınmışdırki, bu da aşağıdakıları əhatə edir:

- bazar iqtisadiyyatı şəraitində sosial və iqtisadi sahədə səmərəliliyin həyata keçirilməsi üçün sahibkarlıq fəaliyyətinin inkişafı;
- Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin vacibliyi əks etdirilir, onun sosial sahədə öz yerini tapmasında və dünya iqtisadiyyatına inteqrasiyasında önəmliliyi qeyd olunur;
- ölkənin iqtisadi cəhətdən potensial vəziyyəti və əmək ehtiyatlarının yetəri qədər olması, sahibkarlıq fəaliyyətinin struktur baxımından inkişafında önəmi göstərilir;
- sahibkarlığın ölkə ərazisində vacibliyi, həmçinin ölkənin ümumi daxili məhsulunda, işsizlikməsələlərinin həll edilməsində, cəmiyyətin maddi rifah halının daha da yaxşılaşmasında önəmli rolumüəyyən olunmuşdur.

Araşdırmalar nəticəsində bir sıra vacib təkliflər meydana gəlirki, bunlara aşağıdakıları aid etmək olar:

- bazar iqtisadiyyatı daxilində Azərbaycanda sahibkarlıq fəaliyyətinin bütün sahə və formalarının inkişafı həyata keçirilməlidir. Bu tədqiqatımsonunda da nəticə olaraq bu qərara gəldimki, ölkəmizdə sahibkarlığıməsasəndə kiçik və orta sahibkarlıq sahələrinin yaradılması və formalaşdırılması daha perspektivli və məqsədə uyğun sayılır. Çünki, kiçik və orta sahibkarlıq fəaliyyəti daha az kapital və əmək tutumlu olur, bazarmühitinə daha tez uyğunlaşa bilirlər;
- ölkə ərazisində sahibkarlıq fəaliyyətinin inkişaf istiqaməti kimi vergi məcəlləsinə müəyyən formada bir sıra güzəştlərin edilməsi məqsədə uyğun hesab olunur;
- Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətləri kimi ilk öncə kiçik və orta sahibkarlıq fəaliyyəti istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarına əsasən müəyyən tədbirləri yerinə yetirməklə bu sahələrin inkişaf yolunu tapmasına yönəltmək lazımdır.

### *İstifadə edilmiş ədəbiyyat:*


**1.** Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2018. 196 s.

**2.** Bayramov M. (2016). Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu: Beynəlxalq təcrübə və Azərbaycan. 25 oktyabr.

**3.** Əlirzayev Ə.Q. (2000). Azərbaycanda sahibkarlığın inkişaf problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı, “Elm”, səh.17, 350 s.

**4.** İmanov Ə.Ş. (2009). Kiçik sahibkarlıq. Bakı. “Elm”. 368 s.

**5.** Məmmədli, O.Q., Cavadov N.Ə., Cavadzadə X.N. (2014). Sosial-iqtisadi statistika. Dərslik. II hissə. Bakı. “MBM” nəşriyyatı. 324 səh.

**6.** Məmmədov O. (2019). “KOB-un payının ÜDM-də 60%-ə, məşğulluqda 70%-ə, qeyri-neft ixracında isə 40%-ə çatdırılması nəzərdə tutulur”. Milli Məclis Analitik informasiya jurnalı. Mart-aprel. s.34-37.

**7.** Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı. 15 dekabr 1992-ci il № 405.

**8.** http://customs.gov.az/ - Dövlət Gömrük Komitəsinin rəsmi saytı.

**9.** https://www.stat.gov.az/news/index.php?id=3680 – Dövlət Statistika Komitəsinin rəsmi saytı.



**A.A.Ahmadova**
*Associate Professor, Azerbaijan State Oil and Industry University*
*ORCID 0000-0001-8384-8493*
**A.M.Aliyev**
*master student, Azerbaijan State Oil and Industry University*

**The role and place of the development of entrepreneurial activity in the republic of Azerbaijan in the national economy**

**Abstract**

*When discussing the role of entrepreneurship in the country's economy, researchers most often note the increase in the level of competition, their innovative activity and social significance. In many developed countries, sustainability is directly related to this sector of the economy, which accounts for 70-80% of total enterprises and 65-75% of the gross domestic product. The role of entrepreneurship in the Azerbaijani economic system is not so significant if we talk about such indicators, but the importance of this area, including its development through state support programs, is no longer denied by anyone. Discussion of the problems of entrepreneurship development as a fundamental and necessary element of the country's socio-economic system is carried out at the highest level. The first task facing every country that has gained independence is to create the social, political and economic basis of this independence and, accordingly, to shape its future development. The economy of each state is as ancient and rich as its long history of development. In general, the country's economy is formed during the great historical period it has passed under the influence of the deepening of the social division of labor, natural factors and socialization of production. In modern economic literature, the term entrepreneurship was defined as a form of economic activity. Thus, new income-generating ideas are revealed for entrepreneurial activity, and their implementation, flexibility, initiative, ability to take risks, and organizational innovation in economic activity are characteristic. It should also be noted that currently new forms of entrepreneurship are emerging and developing in Azerbaijan. In particular, many areas of entrepreneurial activity that are prohibited by law or not, that do not require or do not require special permission have been identified. This article identifies a number of the most important problems solved by entrepreneurship in Azerbaijan based on the analysis of statistical data and literary sources related to the development of entrepreneurship.*

***Keywords:*** *Republic of Azerbaijan, entrepreneurship, national economy, business, development strategy.*

**А.А.Ахмедова**
*доцент, Азербайджанский Государственный Университет Нефти и Промышленности*
*ORCID 0000-0001-8384-8493*
**А.М.Алиев**
*магистрант, Азербайджанский Государственный Университет Нефти и Промышленности*

**Роль и место развития предпринимательской деятельности в Азербайджанской Республике в национальной экономике**

**Резюме**

*При обсуждении роли предпринимательства в экономике страны исследователи чаще всего отмечают рост уровня конкуренции, их инновационную активность и социальную значимость. Во многих развитых странах устойчивость напрямую связана с этим сектором экономики, на долю которого приходится 70-80% от общего числа предприятий и 65-75% валового внутреннего продукта. Роль предпринимательства в экономической системе Азербайджана не столь значительна, если говорить о таких показателях, но важность этой сферы, в том числе ее развития посредством государственных программ поддержки, уже никем не отрицается. Обсуждение проблем развития предпринимательства как основополагающего и необходимого элемента социально-экономической системы страны осуществляется на самом высоком уровне. Первой задачей, стоящей перед каждой страной, обретшей независимость, является создание социальной, политической и экономической*

*основы этой независимости и, соответственно, формирование ее будущего развития. Экономика каждого государства так же древняя и богатая, как и его многовековая история развития. В целом экономика страны формируется в течение большого исторического периода, который она прошла под влиянием углубления общественного разделения труда, природных факторов и обобществления производства. В современной экономической литературе термин предпринимательство был определен как форма экономической деятельности. Таким образом, для предпринимательской деятельности раскрываются новые идеи получения дохода, а для их реализации характерны гибкость, инициативность, способность к риску, организационные инновации в экономической деятельности. Следует также отметить, что в настоящее время в Азербайджане возникают и развиваются новые формы предпринимательства. В частности, выявлено множество направлений предпринимательской деятельности, которые запрещены законом или нет, не требуют или не требуют специального разрешения. В данной статье на основе анализа статистических данных и литературных источников, связанных с развитием предпринимательства, обозначен ряд важнейших проблем, решаемых предпринимательством в Азербайджане.*

***Ключевые слова:*** *Азербайджанская Республика, предпринимательство, национальная экономика, бизнес, стратегия развития.*